# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
## AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
## UNEC
# ELMİ ŞURA

**27 YANVAR 2023-cü il**

# QƏRAR EŞ № 186

**SƏDRLİK ETMİŞDİR** **REKTOR PROF. Ə.C.MURADOV**

**ELMİ KATİB:** **Ə.Ə. MUSTAFAYEVA**

**İŞTİRAK ETMİŞDİR:** Universitetin Elmi Şurasının 54 üzvündən 47 üzvü

## E Ş İ D İ L D İ:

***Tədrisin metodiki və keyfiyyət təminatı mərkəzinin direktoru dos. Eldar Azadov***

*Qaydalar haqqında*

## Q Ə R A R A A L I N D I:

UNEC Elmi Şurasının 23 aprel 2021-ci il tarixli 178 saylı qərarı ilə təsdiq edilmiş "İxtisas üzrə Minor Təhsil Proqramı Qaydaları"na müvafiq dəyişikliklər edilməklə yeni redaktədə təsdiq edilsin.

**ELMİ ŞURANIN SƏDRİ** **PROF. Ə.C. MURADOV**

**ELMİ ŞURANIN KATİBİ** **Ə.Ə. MUSTAFAYEVA**

**"TƏSDİQ EDİRƏM"**

**Azərbaycan Dövlət İqtisad**

**Universitetinin rektoru, professor**

**Ə.C.Muradov**

# UNEC

## İxtisas üzrə Minor Təhsil Proqramının Qaydaları

*(ən son əlavə və dəyişikliklərlə*

*27 yanvar 2023-cü il protokol №186)*

***UNEC Elmi Şurasının 23 aprel 2021-ci il***

***tarixli 178 saylı qərarı ilə təsdiq edilmişdir.***

# 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"na, "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"na, "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları"na və Avropa Kredit Transfer Sisteminə uyğun olaraq hazırlanmışdır.

1.2. İxtisas üzrə Minor təhsil proqramı müvafiq şərtləri ödəyən tələbələrin gələcək peşə fəaliyyətində istifadə etməsi və əlavə təhsil alması məqsədi ilə maraq göstərdikləri digər bir ixtisas üzrə müəyyən olunmuş sayda kredit götürməklə bu sahə üzrə sertifikat əldə etməsini təmin edən proqramdır.

1.3. UNEC-də "İxtisas üzrə Minor Təhsil Proqramı" üzrə təhsil bu qaydalarda nəzərdə tutulan müddəalar əsasında həyata keçirilir və UNEC bakalavriat səviyyəsində əyani formada təhsil alan tələbələri əhatə edir. Bu qaydalarda tənzimlənməyən məsələlər Universitetin Elmi Şurasının müvafiq qərarları ilə tənzimlənir.

# 2. PROQRAMIN TƏŞKİLİ

2.1. UNEC-in müvafiq strukturunun təklifi (qəbul planı, qəbul aparılacaq ixtisaslar) və Universitetin Elmi Şurasının təsdiqi ilə "İxtisas üzrə Minor Təhsil Proqramı" açılır.

2.2. "İxtisas üzrə Minor Təhsil Proqramı" üçün tələb olunan fənlərin siyahısı və ardıcıllığı müvafiq fakültə tərəfindən müəyyən edilir və Universitetin Elmi Şurasında təsdiq olunması üçün təqdim olunur.

2.3. Əsas ixtisas proqramı ilə ortaq olan dərslər nəzərə alınmamaqla, eyni ixtisas qrupunda və ya fərqli ixtisas qrupları arasında olan "İxtisas üzrə Minor Təhsil Proqramı"ında tələbədən eyni ixtisas qrupunda 4, fərqli ixtisas qrupları arasında isə 5 fənni dinləyərək müvəffəqiyyət qazanmaq tələb edilir.

2.4. Tələbələrin "İxtisas üzrə Minor Təhsil Proqramı"na müraciətləri universitetin proqramın icrasını təşkil edən müvafiq strukturu tərəfindən dəyərləndirilir.

2.5. Proqramda iştirak edən tələbə ikinci ixtisas fənlərinin kreditlərini yalnız Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) toplamalıdır.

2.6. Proqram üzrə təhsil alan tələbə ikinci ixtisas üzrə təqaüd müsabiqəsində iştirak edə bilməz və proqram üzrə əldə etdiyi nəticələr təqaüd müsabiqəsi zamanı ÜOMG-də nəzərə alınmır.

2.7. Proqrama qoşulan tələbənin birinci ixtisas üzrə akademik borcu yaranarsa, növbəti semestr Fərdi Tədris Planına ilk olaraq həmin fənni daxil etməlidir. Həmin fənn növbəti semestr tədris olunmadığı təqdirdə bu tələb istisna edilir.

## 3. PROQRAMA MÜRACİƏT VƏ QƏBUL

3.1. "İxtisas üzrə Minor Təhsil Proqramı"na əyani təhsil forması üzrə təhsil alan tələbələr ən tez üçüncü, ən geci isə beşinci semestrində müraciət edə bilər.

3.2. Tələbə "İxtisas üzrə Minor Təhsil Proqramı"na müraciət etdiyi semestrə qədər təhsil aldığı ixtisas üzrə akademik borcu olmamaq şərti ilə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) 65 (100 üzərindən) və ya üzərində olmalıdır.

3.3. Tələbə bakalavr təhsili müddətində yalnız bir "İxtisas üzrə Minor Təhsil Proqramı"na qeydiyyatdan keçə bilər.

3.4. UDİD proqramında təhsil alan və proqramı tamamlaya bilməyən tələbə müvafiq qeydiyyat tarixlərini diqqətə almaqla ikinci ixtisas proqramı üzrə Minor proqramına transfer olmaq üçün müraciət edə bilər ("İxtisas üzrə Minor Təhsil Proqramı"nın qəbul və digər şərtləri ödədiyi təqdirdə). Belə müraciətlərin dəyərləndirilməsi və tələbənin UDİD proqramı çərçivəsində ikinci ixtisas proqramından almış olduğu dərslərin "İxtisas üzrə Minor Təhsil Proqramı" çərçivəsində qəbul edilməsi "Minor Təhsil Proqramı"nın icrasını təşkil edən müvafiq struktur tərəfindən həyata keçirirlir. Tələbə UDİD proqramından "İxtisas üzrə Minor Təhsil Proqramı"na keçid üçün normativ təhsil müddətinin istənilən mərhələsində müraciət edə bilər.

3.5 Minor Proqramına qəbul üçün tələbələr 1 fevral tarixindən 7 fevral tarixinədək və 30 iyun tarixindən 15 avqust tarixinədək aşağıda qeyd olunan sənədləri müvafiq qurumun elektron ünvanına təqdim edirlər:

1. UNEC rektorun adına yazılan ərizə;
2. Akademik transkript.

## 4. TƏDRİS PROSESİNİN TƏŞKİLİ

4.1. "İxtisas üzrə Minor Təhsil Proqramı"ına qeydiyyatdan keçmiş tələbənin proqramda iştirakı dövründə "İxtisas üzrə Minor Təhsil Proqramı"ına davam edə bilməsi üçün tələbənin əsas ixtisas proqramındakı ümumi orta müvəffəqiyyət göstəricisi ən azı 60 üzərindən olması şərtdir. Bu şərti ödəyə bilməyən tələbənin "İxtisas üzrə Minor Təhsil Proqramı"ndan qeydiyyatı silinir.

4.2. "İxtisas üzrə Minor Təhsil Proqramı"ında iştirak ödənişlidir. "İxtisas üzrə Minor Təhsil Proqramı"ında təhsil alan tələbələrin dinlədiyi fənlər üzrə təhsil haqqının məbləği Azərbaycan

Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 №-li qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın 3.2. və 4.3. bəndlərinə müvafiq olaraq həmin qaydaların 3.2.5. bəndinin tələbi gözlənilməklə hesablanır.

4.3. "İxtisas üzrə Minor Təhsil Proqramı"ına qoşulmuş tələbənin bir semestr üzrə dinlədiyi fənlərin kreditlərinin cəmi 40 kreditdən çox ola bilməz. Hər bir tələbə üçün semestr başlamazdan əvvəl Fərdi tədris planları tərtib olunur ki, burada tələbənin Minor proqramı üzrə götürdüyü fənlər qeyd olunmalıdır.

## 5. PROQRAMDAN MƏZUN VƏ XARİC OLUNMA

5.1. "İxtisas üzrə Minor Təhsil Proqramı"nı uğurla başa vuran tələbələrə təhsil aldıqları sahə üzrə sertifikat təqdim edilir.

5.2. Tələbənin "İxtisas üzrə Minor Təhsil Proqramı"ındaki müvəffəqiyyət göstəriciləri tələbənin əsas ixtisas proqramından məzun olmasına təsir etmir və öz ixtisası üzrə diplom təqdim olunur.

5.3. "İxtisas üzrə Minor Təhsil Proqramı"nın tələbəsi tədris ilinin istənilən semestrində proqramı öz istəyi ilə tərk edə bilər. Proqramı tərk edən tələbə yenidən həmin proqrama qeydiyyatdan keçə bilməz.

5.4. "İxtisas üzrə Minor Təhsil Proqramı"ından ardıcıl iki semestr üzürsüz səbəbdən dərs götürməyən (qeydiyyatı dayandırma halı istisna olmaqla) tələbənin həmin proqramdan qeydiyyatı silinir.

5.5. Əsas ixtisas proqramında akademik məzuniyyət götürmüş və ya xaric edilmiş tələbənin "İxtisas üzrə Minor Təhsil Proqramı"ındakı qeydiyyatı da müvafiq status almış olur.

5.6. Əsas ixtisas proqramınından məzun ola bilməyən tələbələr "İxtisas üzrə Minor Təhsil Proqramı"nı uğurla başa vursalar sertifikatları təqdim olunur.

5.7. "İxtisas üzrə Minor Təhsil Proqramı" üçün ayrıca transkript tərtib olunur. Tələbənin "İxtisas üzrə Minor Təhsil Proqramı"nda uğurla tamamladığı dərslər əsas ixtisas proqramınının transkriptində, diplom əlavəsində qeyd olunmur və tələbənin ÜÖMG-sinə təsir etmir.